# KEYFİYYƏTLİ VƏ KALORİLİ QİDALANMA...

***Daxili Qoşunların hərbi hissələrində hərbi qulluqçuların sağlamlığının qorunması məqsədilə fiziki hazırlıq məşğələləri, profilaktik və epidemiya əleyhinə tədbirlər müntəzəm olaraq keçirilməkdə, sanitar-gigiyena qaydalarına əməl edilməsi nəzarətdə saxlanılmaqdadır.***

***Hər bir hərbi qulluqçu şəxsi və ictimai gigiyena qaydalarına ciddi riayət etməklə öz orqanizmini gündəlik möhkəmləndirir. Şəxsi heyətin səhhətinin möhkəmləndirilməsi sözsüz ki, qeyd edilənlərlə yanaşı, sağlam və keyfiyyətli qidalanmadan da asılıdır. Bu baxımdan deyə bilərik ki, şəxsi heyətin keyfiyyətli və kalorili yeməklərlə qidalanması son dərəcə vacibdir.***

17074 saylı hərbi hissə komandanlığı da qeyd olunanları daima diqqət mərkəzində saxlayır.

Əsgər yeməkxanasında məsul vəzifəli şəxslər tərəfindən qidalanma rejimi və ərzağın bölüşdürülməsi tərtibatı işlənib hazırlanır, hətta şəxsi heyatin qidalanması və suyun keyfiyyətliliyi üzərində müntəzəm tibbi nəzarət həyata keçirilir. Eyni zamanda, şəxsi heyatin qidalanmasına, maddi-məişət təminatına, ehtiyac və xahişlərinin yerinə yetirilməsinə xüsusi qayğı göstərilir. Bir sözlə, hazırlanan və bişirilən yeməklərin keyfiyyəti, kaloriliyi tələblərə cavab verir.

Hərbi hissənin ərzaq və əşya xidmətinin rəisi kapitan Elşən Əliyev yeməklərin hazırlanmasının Daxili İşlər Nazirinin Daxili Qoşunlarda şəxsi heyatin qidalanma qaydasını müəyyən edən müvafiq qərarının tələbləri əsasında heyata keçirildiyini söylədi. Qeyd etdi ki, qidaların keyfiyyətli hazırlanması Daxili Qoşunlar Komandanlığının, o cümlədən hissə rəhbərliyinin diqqət yetirdiyi vacib sahələrdən biridir. Xidmət rəisi onu da əlavə etdi ki, yeməklərin tələb olunan səviyyədə hazırlanması məqsədilə kurs keçmiş peşəkar əsgər aşpazlarla bərabər, qadın işçilərin əməyindən də istifadə olunur. Yeməklərin bişirilməsinə xüsusi diqqətlə yanaşan qadın aşpazlar Xacay Qırrıyeva və Leyla Əhmədovanın hazırladığı milli təamlarla yanaşı, hərbi qulluqçulara gündəlik olaraq mövsümi salatlar və meyvə şirələri də verilir.

Hərtərəfli şəraitə malik olan yeməkxanada sanitar-gigiyena qaydalarına ciddi əməl olunur.

**baş leytenant T.Əlizadə**

# HƏRBİ QULLUQÇULARIMIZ DÜŞMƏNƏ NİFRƏT, VƏTƏNƏ MƏHƏBBƏT RUHUNDA TƏRBİYƏ OLUNUR

***Bu gün şəxsi heyatin ümumbəşəri dəyərlərə və Azərbaycan xalqının milli tarixi ənənələrinə əsaslanan hərbi vətənpərvərlik, dövlət və dövlətçiliyə sevgi, sədaqət, ruhunda tərbiyəsi edilməsi əsas vəzifələrdəndir. Bunun üçün hərbi hissələrdə aidiyyəti vəzifəli şəxslər tərəfindən müvafiq işlər görülür, müxtəlif vasitələrdən istifadə olunur. Ona görə də Daxili Qoşunların şəxsi heyəti hər zaman nizam-intizamı ilə fərqlənir, hərbi qulluqçularımız qarşıya qoyulan bütün tapşırıqları keyfiyyətlə yerinə yetirir.***

Daxili Qoşunların 17072 saylı hərbi hissəsi də hüquq-mühafizə orqanları ilə birgə, yerləşdiyi regionda sabitliyin, ictimai asayişin, təhlükəsizliyin təmin olunmasında üzərinə düşən vəzifələrin icrasına məsuliyyətlə yanaşır. Yüksək döyüş hazırlığının qorunub saxlanılmasında hissənin əzmkar, hazırlıqlı intizamlı hərbi qulluqçularının xidməti danılmazdır. Belə hərbi qulluqçulardan biri də baş leytenant İsmayıl Abdullayevdir. O, 2007-2008-ci illərdə qoşunlarda müddətli həqiqi hərbi xidmətdə olub. 2009-cu ildən 16077 saylı hərbi hissədə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmətə davam etdirib. 2010-2012-ci illərdə Daxili Qoşunların Orta İxtisas Hərbi Məktəbində təhsil alıb və məktəbi uğurla bitirib.

2012-ci ildən isə xidmətini qoşunların 17072 saylı hərbi hissəsinin xüsusi təyinatlı dəstəsində davam etdirir. Müxtəlif vəzifələrdə xidmət edib. Bu müddət ərzində bacanq və çalışqanlığı ilə seçilən hərbi qulluqçu Daxili Qoşunlar Komandanlığı və hissə komandiri tərəfindən dəfələrlə mükafatlara layiq görülüb.

Xidməti vəzifə borclarının öhdəsindən layiqincə gələn baş leytenant İ.Abdullayev hazırda xüsusi vasitələrin tətbiqi bölməsində komandirin tərbiyə işləri üzrə müavinidir. Tərbiyə işini döyüş tapşırıqlarının uğurla icra edilməsinə, hərbi intizamın və mənəvi-psixoloji durumun möhkəmlənməsinə yönəldərək, şəxsi heyətə hərbi andın, hərbi nizamnamələrin tələblərinə sözsüz riayət etməyi öyrətməkdə yanaşı, onları dövlətə sədaqət, Vətənə məhəbbət ruhunda formalaşdırır.

Elə bunun nəticəsidir ki, bu gün hissənin şəxsi heyəti respublikamızın mənafeyini, onun suverenliyini qorumağa hər zaman hazırdır.

**gizir L.Hüseynova**

# HƏRBİ XƏBƏRLƏR

## "Rusiya Vertolyotları" Bakıda servis mərkəzi açır

Azərbaycanda "Rusiya Vertolyotları" (Russian Helicopters) şirkətinin servis mərkəzinin açılması istiqamətində işlər aparılır. Bu barədə "RİA Novosti" məlumat yayıb.

"Rusiya Vertolyotları" şirkətindən agentliyə bildirilib ki, bununla bağlı müvafiq sənəd sentyabr ayının sonunda "ADEX-2016" beynəlxalq müdafiə sərgisi çərçivəsində imzalanacaq.

Bakıda Azərbaycanın "Silk Way Helicopter Services" şirkəti ilə ortaq qurulacaq mərkəzdə Rusiya istehsalı olan Mi-8 və Mi-17 tipli mülki helikopterlərə, gələcəkdə isə hərbi helikopterlərə xidmətlərin göstərilməsi nəzərdə tutulur.

Qeyd edək ki, son 10 ildə Azərbaycan Rusiyadan 100-dən çox mülki və hərbi helikopter satın alıb.

## Qazaxıstanın "Arlan" zirehli maşını silahlanmaya qəbul olunub

Qazaxıstanın "Kazakhstan Paramount Engineering" şirkətinin istehsalı olan "Arlan" ("Marauder") zirehli maşınlarının ilk partiyası silahlanmaya qəbul olunub. Maşınlar artıq Silahlı Qüvvələrin müvafiq bölmələrinə verilib. Hətta müəssisənin mühəndisləri tərəfindən hərbçilərə maşından istifadə etmək üçün təlimlər də keçirilib.

İlk dəfə olaraq "Arlan" maşını müxtəlif modifikasiya və silahlanmada bu ilin iyununda keçirilən "KADEX-2016" müdafiə sənayesi məhsulları sərgisində nümayiş olunub.

Qeyd edək ki, "Arlan" minaya qarşı qoruması olan, şəxsi heyatin daşınması üçün nəzərdə tutulan nəqliyyat vasitəsidir.

İordaniya, BƏƏ, Azərbaycan və dünyanın bir çox ölkələrinin silahlanmasında mövcud olan "Marauder" "dünyanın ən yaxşı zirehlə malik" təkərli maşınlarından biri hesab olunur. Tam təchizatlı 10 əsgəri daşıya bilən maşın yüksək müdafiə imkanlarına malikdir. İkiqat müdafiəli korpusa malik "Marauder"in ballistik müdafiəsi NATO-nun STANAG 4569 level 3 (7,62 x 54 mm çaplı güllələr), minaya qarşı qoruması STANAG 4569 3A və 3B (korpusun altında 8 kq, təkərin altında 14 kq TNT partlayışına, yanda 50 kq partlayıcıya) səviyyəsinə cavab verir. Maşının çəkisi 15000 kiloqram təşkil edir.

Qazaxıstan Ordusu tərəfindən sifariş verilmiş maşın üzərinə 12,7 mm çaplı NSVT pulemyotu qurulmuş SARP distans döyüş modulu ilə silahlandırılıb. Bu döyüş modulu "Kazakhstan ASELSAN Engineering" şirkəti tərəfindən istehsal edilir.

## Ukraynanın yeni zirehli avtomobili – "Kozak-5"

Ukraynanın "Praktika" Elm-İstehsalat Birliyinin müəssisəsində dövlət sifarişi əsasında yeni yaradılan zirehli avtomobilin sınaqları yekunlaşıb.

2014-cü ildən "Kozak-001"in yaradılması ilə başlanan istehsalat işləri yeni mərhələyə qədəm qoyub. Artıq adıçəkilən maşının bazasında "Kozak-5" adlı yeni zirehli avtomobil yaradıb. Bu nümuno sələfindən çəkisinin yüngüllüyü, manevr imkanları ilə fərqlənir.

"Kozak-5"in çəkisi 10 ton, uzunluğu 6100 mm, eni 2300 mm, hündürlüyü isə 2250 mm-dir.

Qeyd edək ki, "Iveco"nun 4×4 təkər formulu üzərində yaradılan "Kozak-001" zirehli avtomobilin çəkisi 15 tondur.

Maşının uzunluğu 7160 mm, eni 2500 mm, hündürlüyü isə 2700 metrdir.

## Allah rəhmət eləsin

DQBl-nin şəxsi heyəti polkovnik-leytenant İlqar Novruzova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DQBl-nin şəxsi heyəti polkovnik-leytenant Yusif Məmmədova **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DQBl-nin şəxsi heyəti polkovnik-leytenant Xəqani Qədimova **qardaşının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

## NÜMUNƏVİ XİDMƏT

**12576 saylı hərbi hissənin intizamlı, məsuliyyətli və iradəli hərbi qulluqçularından biri gizir Səadət Ağayevadır.**

O, 1974-cü ildə avqustun 21-də Qaradağ rayonunun Sahil qəsəbəsində anadan olub. Orta məktəbi 1990-cı ildə bitirən Səadət 1994-cü ildən bu günə kimi Daxili Qoşunların hərbi qospitalında

şərəflə, ləyaqətlə xidmətini davam etdirir. Artıq 22 illik zengin hərbi bilikdə malik olan gizir S.Ağayeva nizam-intizam qaydalarına riayət edən hərbi qulluqçudur. O, hərbi qospitalın ruhi-əsəb xəstəlikləri şöbəsində tibb bacısı vəzifəsində xidmət edir. Vəzifələrinin icrasına sözün əsl mənasında məsuliyyətlə yanaşan tibb bacısı peşə hazırlığını artırmaq üçün daim çalışır. Ruhi-əsəb xəstəlikləri şöbəsində xidmətin xüsusilə çətin olduğunu nəzərə alsaq, tibb bacılarının üzərinə necə ağır yük düşdüyünü qeyd edə bilərik.

Xəstələrə xüsusi həssaslıqla yanaşan gizir S.Ağayeva həkim təyinatlarının vaxtında və düzgün yerinə yetirilməsinə, onlara keyfiyyətli qulluq göstərilməsinə diqqət yetirir. Xəstələrin şöbə rəisi və ya ordinator tərəfindən baxışlarında mütləq şəkildə iştirak edir. Müalicə manipulyasiyaları zamanı həkimə yaxından köməklik göstərir. Həmçinin şöbədə daxili rejim qaydalarının yerinə yetirilməsinə, dərman preparatlarının, dezinfeksiyaedici vasitələrin və palatalarda olan tibbi-sanitar əmlakların saxlanılmasına nəzarət edir.

Tabii ki, özünün dediyi kimi, tibb işçiləri hər bir xəstəyə diqqət və qayğı göstərməli, onların simasında öz yaxınlarını, doğmalarını görməyi bacarmalıdırlar.

**Kiçik gizir Asimə Ağayeva da hərbi qospitalın nümunəvi xidmətində seçilən hərbi qulluqçularındandır.**

O, 1980-ci il dekabrın 23-də Ermənistanın Masis rayonunda dünyaya gəlib. 1997-ci ildə Bakı şəhərində yerləşən 146 saylı tam orta məktəbi bitirdikdən sonra 2 nömrəli Bakı Tibb Baza Kollecinə qəbul olub. Peşə sirlərinə dərindən yiyələnən Asimə 2003-cü ildə Daxili Qoşunların hərbi qos-

pitalında xidmətə başlayıb. Hazırda funksional-diaqnostika şöbəsində laboratoriya kabinet rəisi vəzifəsində xidmətini davam etdirir.

Vəzifə borclarının icrasına vicdanla yanaşan kiçik gizir A.Ağayeva şöbə rəisi tərəfindən müsbət xarakterizə olunur. Kabinetin təmizliyinə, sanitar-gigiyenik vəziyyətinə, vaxtlı-vaxtında dezinfeksiya olunmasına nəzarət edən hərbi qulluqçumuz şöbə rəisinin və həkimlərin bütün göstərişlərini düzgün və dəqiq yerinə yetirir. Laboratoriya işlərinin texnikasının əsaslarına yiyələnən kiçik gizir A.Ağayeva kliniki, biokimyəvi və seroloji müayinələri sərbəst şəkildə icra edir. Həmçinin texniki təhlükəsizlik qaydalarına ciddi əməl edən tibb bacısı şöbədə aşkar olunmuş nöqsanların aradan qaldırılmasında yaxından iştirak edir. Nizam-intizamı ilə yoldaşlarına nümunə olmağı bacaran kiçik gizir A.Ağayeva bu il nəzəri biliklərini təkmilləşdirsmək üçün 2 nömrəli Baza Tibb Kollecində laborant ixtisası üzrə keçirilən kursda 23 nəfər arasında fərqlənərək, 1-ci yerə layiq görülüb. Qazandığı nailiyyətləri bundan sonra da qoruyub saxlamasını və nümunəvi xidməti ilə daim fərqlənməsini arzulayırıq.

**leytenant N.Ağayeva**

## HİKMƏTLİ KƏLAMLAR

Özünü vətəndaş zənn edən bir kəs, Vətənin dərdinə yad qala bilməz!

**N.A.Nekrasov**

Namuslu insan olmaq istəyirsənsə, ömrünün mənasını Vətənə xidmətdə gör.

**D.İ.Fonfizin**

Həqiqi namuslu insan ailəsini özündən, Vətənini ailəsindən, insanlığı isə Vətənindən uca tutmalıdır.

**J.L.Dalamber**

Misə qızıl vurmaq nəyə gərəkdir, mis yenə özünü göstərəcəkdir.

**N.Gəncəvi**

Başqalarının izi ilə gedən iz qoya bilməz.

**C.İ.Brannon**

Tez deyib peşman olmaqdansa, gec demək məsləhətlidir.

**A.Bakıxanov**

Dinləyə bilmək bacarığı yaxşı danışmaq bacarığına bərabərdir.

**Ə.M.Bəhmənyar**

Gerçək xoşbəxtlik mal və mülkə sahib olmaq ilə deyil, ağıla sahib olmaq ilə mümkündür.

**Aristotel**

Axmaq həmişə öndə dayanır ki, hamı onu görə bilsin, ağıllı isə həmişə arxada dayanır ki, hamını görə bilsin.

**S.Karmen**

Hətta dahiliyin də sərhədləri var, axmaqlıq isə heç bir sərhəd tanımır.

**A.Düma**

Deyirlər ki, adamlara iki qulaq və bir dil çox eşidib, az danışmaq üçün verilib.

**Plutarx**

Şan-şöhrətini itirsən də, ümidini itirmə. Günəş hər gün batır, amma ertəsi gün yenidən doğur.

**Platon**

Kəşf etmək hamının gördüyünü görmək, lakin hələ heç kəsin ağlına gəlməyəni düşünmək deməkdir.

**A.R.Dyerdi**

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: leytenant X.Tağıyeva

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: (012) 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
**İlham ƏLİYEV**

# ƏSGƏR

№ 17 (483)
31 avqust 2016-cı il
Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası DİN-in Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# "AZƏRBAYCAN SABİTLİK DİYARIDIR, İNKİŞAF MƏKANIDIR"

İsmayıllı rayonuna səfəri çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev avqustun 10-da "İSMA BİKES" velosiped istehsalı zavodunun açılışında iştirak edib.

Dövlətimizin başçısına məlumat verildi ki, İsmayıllı şəhərindən 6 kilometr məsafədə yerləşən Diyallı kəndi ərazisində inşa olunmuş bu istehsal müəssisəsinin layihəsi Bolqarıstanın Sofiya velosiped zavodu ilə əməkdaşlıq çərçivəsində icra olunub.

Müəssisə Bolqarıstan, Danimarka, Niderland, Çin və Türkiyə istehsalı olan avadanlıqlarla təchiz edilib. Zavodun istehsal gücü ilə 20-30 min velosipeddir. Burada 5 növdə velosipedin istehsalı nəzərdə tutulur.

**Rayon ictimaiyyətinin nümayəndələri və müəssisənin kollektivi ilə görüşən Prezident İlham ƏLİYEV dedi:**

- Sizi ürəkdən salamlayıram. Bu zavodun açılışı münasibətilə sizi təbrik edirəm. Çox şadam ki, İsmayıllıda belə gözəl müəssisə açılır, istifadəyə verilir. Özüm də bu müəssisənin məhsulunu sınamışam. Görürəm ki, çox yaxşı velosipeddir. Əminəm ki, Azərbaycan vətəndaşları bunu qiymətləndirəcəklər.

Bu istehsal, əslində, ölkəmizin inkişafını göstərir. Göstərir ki, Azərbaycanda indi müxtəlif istiqamətlər üzrə yeni istehsalat sahələri var və bu istehsalat sahələri ən yüksək səviyyədədir. Bir gün əvvələ qədər velosipedləri xaricdən idxal edirdik. Bu gün isə artıq Azərbaycanda, özü də paytaxt şəhərdə deyil, İsmayıllıda belə gözəl müəssisə açılır. Mənə verilən məlumata görə, bu zavodun istehsal gücü ildə 30 min ədəd velosiped olacaq. Burada artıq onlarla iş yeri yaradılıbdır, müasir texnologiyalar tətbiq olunur. Əlbəttə ki, bu velosipedlər həm daxili bazarda satılacaq, eyni zamanda, hesab edirəm ki, xarica da ixrac edilə bilər. Çünki keyfiyyət buna şərait yaradır.

Azərbaycanın uğurlu inkişafı bax, belə müəssisələrdən asılıdır. Çünki bu gün həm sənaye istehsalı, həm də kənd təsərrüfatı istehsalı daha da böyük əhəmiyyət daşıyır. Mən dəfələrlə bunu qeyd etmişəm, bir daha demək istəyirəm ki, ölkəmizin bundan sonrakı uğurlu inkişafı bax, bu iki istiqamətdən asılı olacaq. Baxmayaraq ki, indi dünyada maliyyə-iqtisadi böhran davam edir, şadam ki, bu ilin yeddi ayında Azərbaycanda sənaye istehsalı təxminən bir faiz artıb. Bu, o qədər də böyük göstərici deyil, ancaq indiki şəraiti nəzərə alsaq, hesab edirəm ki, bu, yaxşı göstəricidir.

Qeyri-neft sənayesi isə iki faizdən çox artıb. Belə müəssisələrin gələcəkdə ölkəmizin müxtəlif yerlərində yaradılması imkan verəcək ki, Azərbaycanda həm sənaye istehsalı artsın, həm də neftdən, qazdan asılılıq daha da azalsın. Bu istiqamətdə işlər görülür və ciddi islahatlar aparılır. İslahatlar da öz bəhrəsini verir. Deyə bilərəm ki, Azərbaycan dünyada hökm sürən böhranı nəzərə alaraq, bu vəziyyətdən ən az itkilərlə çıxır. Ölkəmizdə indi maliyyə sahəsində sabitləşmə təmin edilibdir. Bu il on minlərlə yeni iş yeri yaradılıbdır.

Bu proses davam edir. Kənd təsərrüfatı istiqamətində çox böyük müsbət nailiyyətlər var. Bəlalıdə, Azərbaycanın gələcək inkişafı dayanıqlı olacaq. Bizim imkanımız var ki, gələcək inkişafımızı iki vacib istiqamət - kənd təsərrüfatı və sənaye istehsalı üzərində quraq.

Əlbəttə, digər sahələr də böyük əhəmiyyət daşıyır. Gələcəkdə bizə çox valyuta gətirə bilecək sahə nəqliyyatdır. Bizim coğrafi vəziyyətimizi və artıq gördüyümüz işləri nəzərə alsaq, bunu deməyə əsas var. Azərbaycanın iştirakı və bir çox hallarda təşəbbüsü ilə iki transmilli layihə icra edilir. "Şərq-Qərb", "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin yaradılması Azərbaycanın iştirakı ilə baş verir. İki gün bundan əvvəl Bakıda İran, Rusiya, Azərbaycan prezidentlərinin ilk zirvə görüşündə bu məsələ çox ciddi müzakirə edildi. Azərbaycan burada öz təşəbbüsünü ortaya qoyur. Bu dəhlizin yaradılması və fəaliyyəti ölkəmizə 100 milyonlarla dollar gəlir getirəcək.

Əlbəttə, digər sahələr də böyük əhəmiyyət daşıyır - telekommunikasiya, informasiya texnologiyaları, metallurgiya sahələri, kimya sənayesi. Ancaq bütövlükdə sənaye və kənd təsərrüfatı əsas prioritet kimi qalır və qalacaq.

İsmayıllı rayonunun inkişafı da məni sevindirir. Mən Prezident kimi İsmayıllı rayonunda dəfələrlə olmuşam, ümumiyyətlə, prezidentlik dövrümdə bu, mənim beşinci səfərimdir. Şadam ki, İsmayıllı sürətli inkişaf dövrünü yaşayır. Bu gün icra başçısı mənə görüləcək işlər haqqında məlumat verdi, təqdimatlar edildi. Burada həm turizm sektorunun inkişafı, həm də kənd təsərrüfatının, əmal sənayesinin inkişafı sürətlə getməlidir. Nəzərə alsaq ki, İsmayıllının çox gözəl təbiəti, tarixi var, rayonda Lahıc, Basqal kimi iki qədim kənd var, əlbəttə ki, burada turizm potensialının maksimum dərəcədə cəlb edilməsi gərək hamımızın işi olsun.

Son vaxtlar Azərbaycana gələn turistlərin sayı böyük dərəcədə artıb. Xüsusilə, bu zonaya, şimal-qərb zonasına turistlərin axını müşahidə olunur. Siz də bunu görürsünüz. Mən demişəm, bir daha demək istəyirəm ki, Şamaxıdan Balakənə qədər bütün bu bölgə beynəlxalq turizm zonasına çevrilməlidir və bu istiqamətdə işlər gedir. Əlbəttə ki, ilk növbədə infrastruktur layihələri icra edilməli idi və onların böyük hissəsi icra edildi. Qəbələdə beynəlxalq aeroport tikildi. İndi beynəlxalq uçuşlar həyata keçirilir. Bu beynəlxalq aeroport bütün zona əhalisi üçün böyük əhəmiyyət daşıyır. Zaqatalada aeroport tikildi. Avtomobil yolları tikilir. İndi Bakı-Şamaxı avtomobil yolu dörd zolağa genişləndirilir. Bu gün mən İsmayıllıya-Qaraməryəm yolunun açılışını etmişəm. Bu da rayon üçün çox böyük əhəmiyyət daşıyır, təxminən 30 kilometr uzunluğunda 34 yaşayış məntəqəsini birləşdirir. O yaşayış məntəqələrində İsmayıllı rayonu əhalisinin üçdə bir hissəsi qədər - 30 minə yaxın insan yaşayır.

Yol infrastrukturu, müasir mehmanxanaların tikintisi, əlbəttə ki, turizm üçün əsas şərtdir. İsmayıllıda digər infrastruktur layihələri icra edilib. İçməli su layihəsi artıq neçə ildir ki, başa çatıb. İndi şəhər sakinləri təmiz içməli su ilə təmin olunurlar.

Kanalizasiya və təmizləyici qurğuların da quraşdırılması prosesi başa çatır. Mənə verilən məlumata görə, qazlaşdırma 67 faizdir. Dağlıq relyefi nəzərə alsaq, hesab edirəm ki, bu, çox gözəl göstəricidir. Digər infrastruktur layihələri də icra edilib.

Sosial obyektlərin və yeni müəssisələrin istifadəyə verilməsi, əlbəttə ki, iş yerlərinin yaradılmasına gətirib çıxaracaq. Bu şən quşçuluq fabrikinin, böyük heyvandarlıq kompleksinin, bir neçə otel və istirahət mərkəzinin təqdimatı oldu. İsmayıllının çox gözəl təbiəti, iqlimi var. Ona görə kənd təsərrüfatı, bitkiçilik, heyvandarlıq daha da sürətlə inkişaf etməlidir. Bir qarış torpaq boş olmamalıdır. Daxili tələbatı təmin etmək və ixrac potensialını artırmaq üçün maqsədyönlü şəkildə işlər aparılacaq. Bu barədə bütün göstərişlər verildi.

Bu il kənd təsərrüfatı istiqamətində çox önəmli addımlar atıldı. Bizim üçünənənəvi, ancaq əfsuslar olsun ki, müəyyən dərəcədə tənəzzülə uğramış sahələri bərpa etmişik. İndi mənə deyirlər, bir sıra rayonlarda, o cümlədən İsmayıllı rayonunda ailələr var ki, ay yarım ərzində baramaçılıqdan minlərlə manat pul qazanıb.

Aran zonasında pambıqçılığın inkişafı geniş vüsət alıb. Biz bu il keçən ilə nisbətən pambığın istehsalını üç dəfə artıracağıq, 30 min tondan 100 min tona qaldırılacaq. Gələn il 250-300 min ton olmalıdır. İndi hər bir region üçün xüsusi inkişaf planı hazırlanır. Əlbəttə, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramında əsas istiqamətlər müəyyən edilib və o proqram bizim üçün əsasdır, bir yol xəritəsidir. Ancaq həyat yerində durmur, dəyişikliklər baş verir. Həm bölgədə, həm dünyada yeni situasiya yaranır. İndi bazarlar uğrunda mübarizə gedir. Məhsulu yetişdirmək hələ məsələnin həlli deyil. Onu daxili bazarda və yaxud da xarici bazarda satmaq lazımdır. Ona göə fermerlərə kömək göstərmək üçün indi yetişdirilən bu məhsulların tədarükü ilə məşğul olan qurum da yaradılır. Kənd təsərrüfatında işləyənlər bilirlər ki, aqrolizinq vasitəsilə texnika verilir, gübrəyə, yanacağa, yetişdirilən məhsula görə nə qədər böyük subsidiyalar verilir. İndi biz ixracı stimullaşdırmaq üçün təşviq mexanizmini işə salırıq. Fermerlər torpaq vergisi istisna olmaqla, bütün vergilərdən azaddırlar. Bu, çox ciddi bir proqramdır. Yenə də deyirəm, hər bir rayon üzrə rayonun potensialı maksimum dərəcədə realizə ediləməlidir və ediləcək.

İsmayıllıda belə gözəl istehsalat sahələri açılır. Hesab edirəm ki, bu, sahibkarlar üçün də yaxşı bir siqnal olacaq. Çünki burada investisiyalar qorunur. Mən sahibkarları dəstəkləyirəm, onlarla görüşürəm. Son 10 il ərzində sahibkarlara 1 milyard manatdan çox güzəştli şərtlərlə kreditlər verilib. Həmin pulun hesabına 10 minlərlə, 100 minlərlə iş yeri yaradılıb. Ancaq biz gələcəyə baxmalıyıq. Düzdür, çox iş görülüb, ancaq hələ çox iş görülməlidir.

Bu gün İsmayıllıda ikinci su elektrik stansiyasının açılışını etdik. Bu iki stansiyanın istehsal etdiyi enerji İsmayıllı rayonunun tələbatının 45-50 faizini ödəyir. Bu, artıq gözəl bir göstəricidir. Tələbatın yarısı alternativ, özü də ucuz enerji hesabına təmin edilir. Mənə məlumat verildi ki, yeni su elektrik stansiyasının tikintisi də nəzərdə tutula bilər. O daha böyük həcmdədir - 10 meqavat. İndi mən demişəm ki, texniki-iqtisadi əsaslandırma hazırlansın. Əgər bu məsələ həll olunarsa, onda İsmayıllı rayonu elektrik enerjisini başqa rayonlara - Qəbələyə, Şamaxıya ötürəcək. Bu da enerji təhlükəsizliyimizi təmin edəcək.

Biz işləri planlı şəkildə görürük - ilk mərhələdə infrastruktur layihələri, yol, elektrik stansiyaları, ondan sonra sosial infrastruktur, məktəblər, içməli su, ondan sonra iş yerləri, kreditlər, kənd təsərrüfatı. Mən gələcəyə çox böyük ümidlərlə və nikbinlıklə baxıram. Heç bir böhran, dünyada baş verən heç bir hadisə bizə təsir edə bilməz. Azərbaycan sabitlik diyarıdır, inkişaf məkanıdır. Mehz buna görə bu gün milyonlarla xarici turist Azərbaycana gəlir. Təkcə tarixi abidələri seyr etmək üçün gəlmir, o cümlədən ona göre gəlir ki, burada xidmət, təhlükəsizlik yüksək səviyyədədir, insanlarımız qonaqpərvərdir və əlbəttə ki, gözəl şərait var. Bu şəraiti bax, biz yaradırıq, siz burada yaradırsınız. Mən Prezident kimi çalışıram ki, Azərbaycanda bütün istiqamətlər üzrə işlər daha da yaxşı getsin.

Biz, əlbəttə ki, əldə edilmiş uğurlarla fəxr edə bilərik. Ancaq biz daim irəliyə baxmalıyıq. Harada qüsurlar, çatışmazlıqlar varsa, biz onları aradan götürməliyik və inkişafımızı təmin etməliyik.

Mən sizi bir daha salamlayıram. Əminəm, bu gün mənə təqdim olunan layihələr reallaşacaq və reallaşdıqca mən yenə də İsmayıllıya gələcəyəm ki, o obyektlərin açılışında sizinlə bərabər iştirak edim.

Görüşün sonunda xatirə şəkli çəkdirildi.

**AZƏRTAC**

# DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

***Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Daxili İşlər Naziri general-polkovnik Ramil Usubov avqustun 26-da və 27-də Şaki Şəhər-Rayon Polis Şöbəsində polis orqanlarının fəaliyyəti ilə bağlı məsələlərlə əlaqədar növbəti qabul keçirib.***

Şəki, Balakən, Qax, Oğuz, Zaqatala, Qəbələ şəhər və rayonlarının qəbul üçün müraciət edən sakinlərini, həmçinin bölgədə məskunlaşmış qaçqın və məcburi köçkünlərin nümayəndələrini şəxsən dinləyən nazir onların narahat edən problemlərin operativ şəkildə, mövcud qanunvericiliyə uyğun həlli üçün aidiyyəti Baş İdarə və xidmət rəislərinə konkret tapşırıqlar verib. Müraciətlərin böyük əksəriyyəti elə yerindəcə öz həllini tapıb. Polisin fəaliyyətinə aid olmayan erizələrin aidiyyəti üzrə digər dövlət orqanlarına göndərilməsi nəzərə çatdırılıb.

Qəbulda iştirak edənlər göstərilən diqqət və qayğıya, bölgələrdə mütəmadi olaraq vətəndaşların qəbulunun təşkilinə, icra orqanlarının rəhbərləri tərəfindən müraciətlərinə operativ münasibətə və həssas yanaşılmasına görə dövlətimizin başçısına minnətdarlıq edib, onun ölkəmizin sürətli inkişafına yönəlmış ardıcıl, məqsədyönlü və qətiyyətli siyasi kursunu hər zaman dəstəkləyəcəklərini vurğulayıblar.

****

Daxili İşlər Nazirliyi rəhbərliyinin tapşırığı, Baş Pasport, Qeydiyyat və Miqrasiya İdarəsinin təşəbbüsü ilə ölkəmizin şəhər və rayonlarında şəxsiyyət vəsiqələrinin verilməsi və etibarlı müddətə bitmiş sənədlərin yenilənməsi ilə dəyişdirilməsi üzrə səyyar xidmətlər davam etdirilir.

Şəxsiyyət vəsiqələrinin verilməsi işinin daha da sürətləndirilməsi və vətəndaş məmnunluğunun təmin edilməsi məqsədi ilə növbəti belə tədbirlər respublikanın Astara və Beyləqan rayonlarının ucqar kəndlərində baş tutub.

Səyyar xidmətlər zamanı şəxsiyyət vəsiqələri almaq və ya dəyişmək istəyən, ümumilikdə, 1698 nəfər, o, cümlədən Astara rayonunda 1477, Beyləqan rayonunda isə 221 şəxsin müvafiq sənədləri icraya qəbul edilib. Bu sahədə tədbirlər davam etdirilir.

***Avqustun 13-də Daxili Qoşunların Bakı şəhərində yerləşən üç hərbi hissəsində xidmətə yeni qəbul edilmiş əsgərlərin andiçmə mərasimi keçirilib. Mərasimlərdə Daxili Qoşunlar Komandanının müavinləri, Veteranlar şurasının üzvləri və əsgər valideynləri iştirak ediblər.***

Tədbirlər Ümummilli Lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizin aziz xatirəsinin yad edilməsi ilə başlayıb. Nümunəvi-Göstərici Hərbi Orkestrin müşayiəti ilə Dövlət himni ifa edilib.

Sonra hərbi hissələrin komandirləri çıxış edərək, əsgərlərə hərbi andın mənasını, öz xalqına, Azərbaycan Respublikasına və Azərbaycan hökumətinə sədaqətlə and içən hərbi qulluqçuların üzərinə düşən şərəfli və məsul vəzifələri, eləcə də Azərbaycan Respublikası Konstitusiyasının müvafiq maddələrinin tələblərini xatırladıblar.

# DAXİLİ QOŞUNLARDA XİDMƏTƏ YENİ QƏBUL EDİLMİŞ ƏSGƏRLƏRİN HƏRBİ ANDİÇMƏ MƏRASİMİ KEÇİRİLİB

Gənc

# ESKADRİLYA ÜZƏRİNƏ DÜŞƏN VƏZİFƏLƏRİ KEYFİYYƏTLƏ İCRA EDİR

***Şəxsi heyətin, maddi vəsaitlərin əməliyyat və ya tədbirlərin keçirildiyi rayonlara daşınması, patrul-nəzarət, axtarış-xilasetmə uçuşlarının həyata keçirilməsi, hamçinin paraşüt-desant və xüsusi həmlə qrupları ilə birlikdə fəaliyyətlərə daim hazır olması Daxili Qoşunların 17077 saylı hərbi hissəsinin qarşısında duran əsas vəzifələrdir.***

Hərbi hissə komandiri polkovnik-leytenant Rövşən Cavadov bu gün şəxsi heyətin bütün tapşırıqlarının öhdəsindən peşəkarlıqla gəldiyini bildirdi. Qeyd etdi ki, hərbi qulluqçular peşə hazırlığının daha da artırılması istiqamətində hər zaman çalışır, istifadədə olan helikopterlərin daima uçuşa hazır, saz vəziyyətdə saxlanılmasını təmin edir.

Hərbi hissədə planlı şəkildə helikopterlərdə reqlament işləri aparılır, onlara texniki qulluq göstərilir: "Fəxrlə qeyd etmək lazımdır ki, bu gün qoşunların Eskadrilyası peşəkar hərbi qulluqçu və mütəxəssislərlə komplektləşdirilmişdir. Daxili İşlər Nazirliyi rəhbərliyinin və Daxili Qoşunların Komandanlığının xüsusi diqqət və qayğısı sayəsində pilotlarımızın ixtisaslarının artırılması, peşəkar vərdişlərin təkmilləşdirilməsi məqsədilə Milli Aviasiya Akademiyasında müvafiq kurslara cəlb olunması həyata keçirilir. Hazırda hərbi hissə qarşıya qoyulmuş tapşırıqların icrasına tam hazırdır. Şəxsi heyətdə böyük ruh yüksəkliyi və özünəinam hissi formalaşıb".

Hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik-leytenant Şiraslan Yusubov isə tərbiya işinin həyata keçirilməsindən danışdı. Nəzərə çatdırdı ki, hərbi hissədə tərbiyə işi Daxili Qoşunlar Komandanının əmr və sərəncamlarına, hamçinin müvafiq Direktivinin tələblərinə əsasən təşkil olunur. Müntəzəm olaraq qanunazidd halların qarşısının alınması, hərbi intizamın, hərbi kollektivin möhkəmləndirilməsi istiqamətində işlər davam etdirilir: "Qeyd etmək lazımdır ki, şəxsi heyətlə aparılan səmərəli tərbiyə işinin nəticəsi olaraq ötən dövr ərzində hərbi hissədə hər hansı bir kobud intizam və hüquq pozuntusu hallarına yol verilməyib, xəsarətalma halları qeydə alınmayıb. Daxili Qoşunlar Komandanın müvafiq əmri ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçularının etik davranış qaydaları"nın tələblərinə riayət edilir. Şəxsi heyətlə Vətənə sədaqət, onun müdafiəsi üçün şəxsi məsuliyyət, milli qürur, hərbçi şərəfinin qorunması, Daxili Qoşunlarda xidmətə görə iftixar, şəxsi ləyaqətə hörmət hisslərinin aşılanması yönümündə işlər aparılır və bu kimi tədbirlərin keçirilməsinə ciddi nəzarət olunur".

Sözsüz ki, pilotların xidmətinin xüsusiyyətləri nəzərə alınmaqla, onlar tərəfindən uçuşlar zamanı ekstremal şəraitdə düzgün və ani qərarın verilməsində mənəvi-psixoloji hazırlıq amili əsasdır.

Psixoloji baxımdan zəif hərbi qulluqçunun keyfiyyəti, nümunəvi xidmətindən söhbət gedə bilməz. Məhz bu xüsusiyyətləri daim diqqət mərkəzində saxlayan polkovnik-leytenant Ş.Yusubov bundan sonra da şəxsi heyətdə döyüş ruhunun yüksək olması və ayıq-sayıq xidmət aparmaları üçün onlara hər cür mənəvi dəstəyin veriləcəyini xüsusilə vurğuladı.

**leytenant N.Ağayeva**

# TƏRBİYƏ İŞİNİN KEYFİYYƏTLƏ KEÇİRİLMƏSİ HƏRBİ İNTİZAMIN MÖHKƏMLƏNDİRİLMƏSİNİN ƏSAS ŞƏRTİDİR

***Qəzetimizdə mütəmadi olaraq hərbi hissələrdə hərbi intizamın möhkəmləndirilməsi məqsədilə görülən işlər, bu istiqamətdə əldə olunmuş qabaqcıl təcrübələr işıqlandırılır.***

Bu dəfə qoşunların 67987 saylı hərbi hissəsində döyüş hazırlığının və döyüş təliminin keyfiyyətinin, şəxsi heyətin mənəvi-psixoloji hazırlığının artırılması məqsədilə həyata keçirilən tərbiyə işi ilə bağlı tədbirlər barədə hissənin tərbiyə bölməsinin rəisi-baş təlimatçı mayor Mezahir Seyidov məlumat verdi.

Bildirdi ki, qarşıya qoyulmuş xidmətdöyüş tapşırıqlarının yerinə yetirilməsində vacib amillərdən olan hərbi intizamın və qanunçuluğun möhkəmləndirilməsinin əsas şərti olan tərbiyə işinin keyfiyyətlə keçirilməsi daim hissə komandanlığı tərəfindən diqqət mərkəzində saxlanılır.

Belə ki, hər bir komandir öz tabeliyində olanları hərbi intizamın bütün tələblərini sözsüz yerinə yetirmək ruhunda tərbiyə edir, onlarda hərbi şərəfi və hərbi borcu şüurlu inkişaf etdirərək möhkəmləndirir. Eyni zamanda, vəzifə borclarını vicdanla yerinə yetirən hərbi qulluqçular müvafiq qaydalarda xidmətə həvəsləndirilir, intizamı pozanlara qarşı isə ciddi tədbirlər görülür. Komandir heyəti tərəfindən hərbi qulluqçuların şəxsi keyfiyyətləri öyrənilir. Bu da öz növbəsində hərbi qulluqçular arasında möhkəm ünsiyyət olan münasibətlərin öyrənilməsinə, onların nalayiq hərəkətlərə sövq edən səbəblərin vaxtında müəyyən edilməsinə və qarşısının vaxtında alınmasına şərait yaradır.

Həyata keçirilən tədbirlər Daxili İşlər Nazirinin və Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanının müvafiq əmr və göstərişlərinin, eləcə də "Daxili Qoşunlarda tərbiyə işinin təşkili barəsində" Direktivinin tələblərinə əsasən təşkil edilir.

Hər həftənin 1-ci günü ictimai-siyasi hazırlıq, 2-ci və 4-cü günləri isə tərbiyə saatları təşkil olunur. Hərbi qulluqçularla keçirilən məşğələlərdə Vətənə, xalqa, dövlət və dövlətçiliyə, hərbi anda sadiq olmağın, hərbi nizamnamələrin tələblərinə sözsüz əməl etməyin vacibliyi bir daha izah edilir.

Tərbiyə işinin bütün növ kateqoriyalı hərbi qulluqçularla keçirildiyini qeyd edən bölmə rəisi bu zaman müxtəlif ictimai, qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqələrin yaradıldığını, hərbi mətbuatdan, eləcə də digər təbliğat vasitələrindən geniş istifadə olunduğunu diqqətə çatdırdı. Əlavə etdi ki, şəxsi heyətin vətənpərvərlik hissinin gücləndirilməsi, Daxili Qoşunların qəhrəmanlıq ənənələrinin təbliğ olunması məqsədilə mütəmadi olaraq muzeya gəzintilər təşkil edilir. Burada onlara qoşunların şərəfli tarixi, formalaşma dövrü, vəzifələri, döyüş yolu, torpaqlarımızın müdafiəsi uğrunda şəhid olmuş hərbi qulluqçularımızın göstərdiyi qəhrəmanlıq nümunələri barədə geniş məlumat verilir.

Bundan əlavə, şəxsi heyətin mənəvi-psixoloji hazırlığının əsas forması kimi ictimai-siyasi hazırlıq məşğələlərinin daha keyfiyyətlə keçirilməsinə diqqət artırılır.

Hər bir məşğələnin əvvəlində şəxsi heyətə həftə ərzində respublikada baş vermiş siyasi və iqtisadi yeniliklər, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində ölkə rəhbərliyi tərəfindən keçirilən tədbirlər barədə məlumatlar çatdırılır.

Göründüyü kimi, hərbi hissədə şəxsi heyətlə tərbiyə işinin keyfiyyətli keçirilməsi və daima təkmilləşdirilməsi üçün bütün lazımi tədbirlərdən istifadə olunur. Bunun nəticəsidir ki, hərbi hissədə möhkəm nizam-intizam, daxili qaydaqanun hökm sürür.

**leytenant X.Tağıyeva**

# QAROVUL NƏFƏRLƏRİNİN HAZIRLIĞINA XÜSUSİ DİQQƏT YETİRİLİR

***Hərbi qulluqçu öz Vətəninin müdafiəsi üçün şəxsi məsuliyyət daşıyır. O, Azərbaycan dövlətinin mənafeyini qorumağa, onun nüfuzunun və qüdrətinin möhkəmlənməsinə səy göstərməyə, Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına riayət etməyə, hərbi andı yerinə yetirməyə, intizamlı, vicdanlı və cəsarətli olmağa, hərbi borcunu yerinə yetirərkən, bütün qüvvəsini və lazım gəldikdə, canını əsirgəməməyə, komandirlərə (rəislərə) sözsüz tabe olmağa və döyüşdə onları müdafiə etməyə, öz hərbi hissəsinin Döyüş Bayrağını göz bəbəyi kimi qorumağa borcludur.***

Daxili Qoşunların 17074 saylı hərbi hissəsinin komendant bölüyündə xidmət edən hər bir hərbi qulluqçu bu fikirləri dərindən dərk edir, xidməti vəzifə borcunu hərbi nizamnamələrdə əks olunan tələblərə uyğun həyata keçirir.

Bölük komandiri leytenant Röyal Əzizov bildirdi ki, tabeliyində olan hərbi qulluqçular hərbi nizamnamələrin tələblərini və öz vəzifələrini yaxşı bilir, verilmiş tapşırıqları vicdanla yerinə yetirir. Hərbi bilik lərini müntəzəm surətdə təkmilləşdirən şəxsi heyət təhkim olunmuş silahın taktiki-texniki xüsusiyyətlərini dərindən mənimsəyib.

Bölükdə elə bir mühit formalaşıb ki, döyüşçü yoldaşlığına sadiq olan hərbi qulluqçular xidmətin bütün çətinlik və məhrumiyyətlərinə mətinliklə dözməyi bacarır, öz yoldaşlarına sözü və işi ilə kömək etməyə, onları ziyanlı vərdişlərdən çəkindirməyə çalışırlar.

Qarovul xidmətinə cəlb olunan hərbi qulluqçuların seçiminə, onların mənəvi-psixoloji durumlarının yüksək səviyyədə olmasına xüsusi diqqət yetirilir. Xidmətə cəlb edilməzdən öncə şəxsi heyətə yerinə yetirdikləri döyüş tapşırığının əhəmiyyəti izah edilir. Onların hər birindən "Qarnizon və qarovul xidmətləri Nizamnaməsin"ə ciddi riayət etmələri tələb olunur. Bir daha diqqətə çatdırılır ki, qarovul xidməti döyüş bayrağının, hərbi obyektlərin etibarlı mühafizə və müdafiə etmək üçün nəzərdə tutulub.

Postlarda saatdarın ayıq-sayıq xidmət aparması, silahın doldurulub-boşaldılması zamanı təhlükəsizlik qaydalarına ciddi riayət olunması, eləcə də qarovul otağında qayda-qanuna əməl edilməsi əsas tələblərdəndir.

Bölük komandiri xidmətə cəlb olunan şəxsi heyətin ateş və fiziki hazırlığının da diqqət mərkəzində saxlanıldığını vurğuladı. O, bu məqsədlə mütəmadi olaraq praktiki təlimlərin keçirildiyini və məşğələlərdə şəxsi heyətin fəallıq göstərdiyini nəzərə çatdırdı.

Xidmət zamanı oyaq növbənin asudə vaxtının səmərəli təşkili də diqqətdən kənarda qalmır. Müvafiq nizamnamənin tələblərinə uyğun olaraq mahnı oxumaq və çalğı alətlərində çalmaq qadağandır. Radio verilişlərinə ancaq qulaqlıq vasitəsilə qulaq asmağa, kitab oxumağa, yazmağa, şahmat və dama oynamağa icazə verilir. Papiros çəkməyə və ayaqqabı təmizləməyə isə ayrılmış xüsusi yerlərdə icazə verilir.

Leytenant Cavanşir Allahverdiyev, qarovul rəisinin köməkçisi çavuş Elşən Niftəliyev, əsgərlər Ülvi Nuruzadə, Əlişir Nuriyev, Samir Quliyev və Sərxan Məmmədov komendant bölüyünün fəaliyyətini xarakterizə edir.

**baş leytenant T.Əlizadə**



# GƏNC "ŞAHİNLƏR" HƏRBİ HİSSƏMİZDƏ...

***Avqustun 18-də Səbail rayon İcra Hakimiyyəti ilə Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının artıq 11-ci dəfə həyata keçirdiyi birgə layihə çərçivəsində paytaxtımızın mərkəzindəki «Sahil bağı»nda məktəblilərin «Şahinlər» yay istirahət düşərgəsinə yola salınma mərasimi keçirilib.***

Yaradılmış hərbi-vətənpərvərlik təmayüllü yay istirahət düşərgəsinə Qarabağ müharibəsi əlilləri və veteranlarının, azəminatlı və imkansız ailələrin uşaqları, təhsildə və idmanda fərqlənən şagirdlər, həmçinin «SOS-Azərbaycan» uşaq kəndində tərbiyə alan, ümumilikdə, 139 nəfər yola salınıb.

Tədbir Daxili Qoşunların Nümunəvi-Göstərici Hərbi Orkestrinin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himninin ifası ilə başlanıb.

Yolasalma mərasimində çıxış edən Səbail rayon İcra Hakimiyyətinin Başçısının birinci müavini Xalidə Bayramova ölkə başçısı cənab İlham Əliyevin yeniyetmə və gənclərin sağlam böyüməsi, gənc nəslin vətənə məhəbbət, Azərbaycan dövlətçiliyinə sədaqət ruhunda tərbiyə olunması istiqamətində gördüyü işlərdən, Heydər Əliyev Fondunun Prezidenti, Millət vəkili Mehriban xanım Əliyevanın uşaq və yeniyetmələrə olan diqqət və qayğısından söz açaraq, dövlətimiz tərəfindən bu istiqamətdə həyata keçirilən layihələrdən danışıb.

Daha sonra Daxili Qoşunların Baş İdarəsinin Şəxsi Heyət üzrə İdarəsində mənəvi-psixoloji hazırlıq şöbəsinin rəisi polkovnik Mətləb Qənbərov çıxış edib. Uşaqların mənalı və yaddaqalan istirahəti üçün görülən işlərdən danışaraq, qeyd edib ki, Daxili Qoşunlar Komandanlığı istənilən vətənpərvərlik layihələrini dəstəkləyir.

Yola düşməzdən əvvəl gənc «Şahinlər» Fəxri Xiyabana gələrək, Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət edib, abidə önünə tər çiçəklər düzüblər.

Qeyd edək ki, hərbi təmayüllü düşərgədə "Şahinlər"in istirahəti avqustun 27-dək davam edib. Düşərgədə yeniyetmələrin səmərəli istirahəti üçün hər cür şərait yaradılıb. İstirahət müddətində onlar xüsusi geyim, forma və lazımi idman ləvazimatları ilə təmin ediliblər.

Eyni zamanda məktəblilərə Daxili Qoşunların hərbi qulluqçuları tərəfindən vətənpərvərlik hisləri aşılanıb, vətənpərvərlik mövzularında viktorinalar keçirilib, ibtidai hərbi biliklər öyrədilib. Uşaqların təlim-tərbiyə işləri ilə qoşunların zabit, gizirləri ilə yanaşı, rayonun məktəblərində çalışan idman və ibtidai-hərbi hazırlıq müəllimləri məşğul olublar.

Məktəblilər düşərgədə yüksək kalorili yeməklə, təzə meyvə və tərəvəz, süd məhsulları ilə qidalanıblar.

İstirahət günlərində şagirdlərin Qubanın manzərəli yerlərinə, tarixi guşələrinə gəzintiləri də təşkil edilib.

**Matbuat xidməti**

# XXXI YAY OLİMPİYA OYUNLARINA YEKUN VURULUB

***Azərbaycan medallarının sayına görə 207 dövlət arasında 15-ci olub***

Avqustun 22-də Bakı vaxtı ilə saat 03:00-da Braziliyanın Rio-de-Janeyro şəhərindəki "Marakana" stadionunda XXXI Yay Olimpiya Oyunlarının bağlanış mərasimi keçirilib.

17 gün davam edən Olimpiadada 306 yarış keçirilib və ümumilikdə, 2102 medal sahiblərinə təqdim olunub. Bu Olimpiadada rekord sayda - 207 ölkədən 11 mindən çox idmançı mübarizə aparıb.

XXXI Yay Olimpiya Oyunları Azərbaycan olimpiya yığması üçün də uğurlu olub. Azərbaycan yığma komandası yarışlara əvvəlki olimpiadalarla müqayisədə daha geniş tərkibdə - idmanın 18 növü üzrə 56 idmançı (57 lisenziya) ilə qatılıb. Bu, ötən Olimpiya Oyunları ilə müqayisədə 4 idman növü çoxdur.

Ölkəmiz triatlon, kamandan oxatma, velosiped və kanoe-slalom idman növlərində ilk dəfə təmsil olunub. Olimpiadada ölkəmizi təmsil edən 56 idmançıdan 36-sı ilk dəfə Olimpiya Oyunlarının iştirakçısı olub. Rio-de-Janeyroda Azərbaycan güləş, gimnastika və boks yarışlarında 3 hakimlə təmsil olunub.

Rio-2016-da Azərbaycan komandası 18 (1 qızıl, 7 gümüş və 10 bürünc) medal qazanıb. Komandamıza yeganə qızıl medalı taekvondoçu Radik İsayev qazandırıb.

Sərbəst güləşçilər Toğrul Əsgərov, Xetaq Qazyumov, boksçu Lorenzo Sotomayor, cüdoçular Rüstəm Orucov və Elmar Qasımov, qadın güləşçimiz Mariya Stadnik və kanoeçi Aleksandr Demyanenko yalnız final görüşlərində uduzaraq gümüş medala sahib olublar.

Taekvondo yarışlarında Milad Beiqi Harçeqani və Patimat Abakarova, boksçu Kamran Şahsuvarlı, güləşçilər Rasul Çunayev, Sabah Şərıəti, Nataliya Sinişin, Hacı Əliyev, Cəbrayıl Həsənov və Şərif Şərifov, avarçəkən İnna Osipenko-Radomskaya isə bürünc medalla kifayətlənibər.

Azərbaycan 207 dövlət arasında medallarının sayına görə 15-ci, medalın keyfiyyəti baxımından isə 39-cu yerdə qərarlaşıb. Bu nailiyyətlə ölkəmiz Avropa dövlətləri arasında 7-ci, İslam dövlətləri arasında 1-ci, postsovet məkanında isə 2-ci olub.

**"Əsgər"**



# XİDMƏTİ-DÖYÜŞ TAPŞIRIQLARINI MÜVƏFFƏQİYYƏTLƏ YERİNƏ YETİRMƏK TƏLİMİN ƏSAS MAHİYYƏTİDİR

***17074 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin şəxsi heyəti qarşıda duran müvafiq tapşırıqları yerinə yetirməyə hər an hazırdır. Onların hərtərəfli hazırlığı bunu deməyə əsas verir.***

Dəstə komandiri vəzifələrini icra edən kapitan Elçin Hadıyev hərbi hissənin yerləşdiyi regionun mövcud relyefini nəzərə alaraq, praktiki təlimlərin daha çox əraziyə uyğun şəraitdə keçirildiyini bildirdi. O, şəxsi heyətin atəş və fiziki hazırlıqla yanaşı, xüsusi-taktiki hazırlıq, hərbi dağçılıq, habelə həmlə-desant hazırlığı məşğələlərinə də cəlb olunduğunu söylədi. Xüsusi-taktiki hazırlıq məşğələsindən söz açaraq, təlimin məqsəd və əhəmiyyətindən danışdı. Təlimin əsas mahiyyətinin müəyyən edilmiş tapşırığın müvəffəqiyyətlə yerinə yetirilməsi olduğunu deyən dəstə komandiri qeyd etdi ki, praktiki məşğələlər zamanı hərbi qulluqçulara xüsusi metod və vasitələr öyrədilir.

Məsələn, alpinist qülləsində bina axtarışı üçün obyektə daxil olmaq, qısa müddətdə helikopter vasitəsilə əməliyyat rayonuna çatmaq, təyin olunmuş əraziyə enmək, hərbi dağçılıq və s. istiqamətlərdə keçirilən təlimlərdə şəxsi heyətə mürəkkəb dağlıq ərazidə keşfiyyatın aparılmasının üsulları, dağçılıq ləvazimatlarından düzgün istifadə qaydaları, texnikaları, təhlükəsizlik tədbirlərinə riayət etmək, qarşıya çıxmış hər hansı bir maneənin asanlıqla və qısa müddətdə aradan qaldırılması məşq etdirilir.



Məşğələlərə dəstə komandirinin xüsusi hazırlıq üzrə müavini kapitan Elşad Qasımov rəhbərlik edir. Tapşırıqların öhdəsindən layiqincə gələn hərbi qulluqçulardan leytenant Elyar Səmədovun, gizir Yolçu Xəlilovun, gizir Cahit Tağızadənin, baş çavuş Ruslan Sadıqovun və baş çavuş Arif Behbudovun adlarını qeyd etmək olar.

Kapitan E.Qasımov diqqətə çatdırdı ki, təlim və məşğələlərin müvafiq plana əsasən müntəzəm olaraq keçirilməsi yalnız bir dəfə - hərbi qulluqçuların peşə vərdişlərinin, o cümlədən döyüş qabiliyyətinin daha da təkmilləşdirilməsinə xidmət edir.

**baş leytenant T.Əlizadə**

# HƏRBİ HİSSƏLƏRİN İLDÖNÜMÜ QEYD OLUNUB

***Avqustun 27-də 25033, 28-də isə 16073 saylı hərbi hissənin yaranmasının 24-cü ildönümü münasibətilə mərasim keçirilib.***

Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov hər iki hərbi hissənin şəxsi heyətinə təbrik məktubu ünvanlayıb.

Təbrikdə yarandıqları gündən etibarən Vətənə sədaqətlə xidmət edən hərbi hissələrin tədrislərə inkişaf yolu keçdiyi, döyüş təlimi və xidmət səviyyəsinin artırılması, şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində nəzərəçarpacaq irəliləyişlər əldə etdiyi vurğulanıb.

Qeyd olunub ki, regionda ictimai sabitliyin qarantı olan hər iki hərbi hissədə ötən müddət ərzində hərbi qulluqçuların peşə hazırlığının artırılması, maddi-texniki tədris bazasının möhkəmləndirilməsi üçün xeyli işlər görülüb.

Xüsusi olaraq vurğulanıb ki, şəxsi heyətə göstərilən diqqət və qayğının nəticəsidir ki, bu gün ciddi nizam-intizamın hökm sürdüyü hərbi hissələrimiz qarşıya qoyulan hər bir xidməti-döyüş tapşırığını tam və keyfiyyətlə, yüksək səviyyədə yerinə yetirməyə hazırdır.

Təbrikdə eyni zamanda hərbi hissənin şəxsi heyətinin Ümummilli Liderimiz, ordumuzun memarı möhtərəm Heydər Əliyevin ideyalarına sadiq qalaraq, Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Daxili Qoşunlara göstərdiyi etimadı doğruldacaqlarına, Daxili Qoşunların qəhrəmanlıq ənənələrini bundan sonra da davam etdirəcəklərinə, müqəddəs Döyüş Bayrağını göz bəbəyi kimi qoruyacaqlarına, ləyaqətli xidmət nümunəsi göstərəcəklərinə əminlik ifadə olunub.

**leytenant X.Tağıyeva**

# HƏRBİ QULLUQÇULARIMIZ NÖVBƏTİ DƏFƏ QANUN POZUNTUSUNUN QARŞISINI ALIBLAR

***Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının əsas vəzifələrindən biri də həvalə olunmuş mühüm dövlət obyektlərinin mühafizəsidir ki, qoşunlar bu tapşırığın öhdəsindən layiqincə gəlir.***

Xüsusilə, 16076 saylı hərbi hissənin hərbi qulluqçuları hər zaman ayıq-sayıq xidmətləri ilə fərqlənirlər. Ötən günlərdə mühafizə olunan mühüm dövlət obyektinə daxil olmaq istəyən naməlum şəxslərin postda xidmət aparan hərbi qulluqçularımız tərəfindən saxlanılaraq, ərazi üzrə polis bölməsinə təhvil verilməsi də deyilənləri bir daha sübut edir.

Belə ki, avqustun 7-də Daxili İşlər Nazirliyinin inzibati binasının mühafizəsi üzrə təyin olunmuş qarovulda xidmət aparan saatdar - baş əsgər Şahmar Dadaşov saat 02:55 radələrində postun qadağan olunan sahəsinə yaxınlaşan ənəbi vətəndaşı xəbərdar etməsinə baxmayaraq, o, tabe olmayaraq posta daxil olmağa cəhd göstərib. Bu zaman hərbi qulluqçumuz naməlum şəxsi saxlayaraq, dərhal qarovul rəisi baş gizir Elçin Rüstəmova məlumat verib.

Vaxtında həmin posta gələn qarovul rəisi saxlanılan ənəbi vətəndaşı Daxili İşlər Nazirliyinin komendant xidmətinin polis əməkdaşlarına təhvil verib.

Göründüyü kimi, hərbi qulluqçularımızın vəzifə borclarının icrası zamanı ayıq-sayıq və məsuliyyətli davranması nəticəsində növbəti qanun pozuntusunun qarşısı alınıb.

Hər iki hərbi qulluqçu hissə komandirinin müvafiq əmri ilə mükafatlandırılıblar.

Məlumat üçün qeyd edək ki, baş gizir E.Rüstəmov 1974-cü il martın 2-də Bakı şəhərində doğulub. 1992-ci ildən Daxili Qoşunların sıralarında xidmət edir.

Baş əsgər Şahmar Dadaşov isə 1997-ci il may ayının 21-də Balakən rayonunun Yenişərif kəndində anadan olub. 2015-ci ilin iyul ayından 16076 saylı hərbi hissədə müddətli həqiqi hərbi xidmətdədir.

**leytenant X.Tağıyeva**